**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 76**

**Bakı şəhəri** **24.12.2020-ci il**

“Bakı Fond Birjası” QSC-də ticarət tariflərinə dair

**Əmr edirəm**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabinetinin “Tədbirlər Planı”nın icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankının təklif etdiyi əlavə dəstəkləyici tədbirləri nəzərə alaraq, “Bakı Fond Birjası” QSC-də:

- 2021-ci ildə listinqə daxil olan və listinqdə saxlanılan korporativ qiymətli kağızların emitentləri 1 (bir) il müddətinə illik listinq xidmət haqqından azad edilsin;
- qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin dairəsi 01 iyul 2021-ci il tarixinədək minimallaşdırılaraq, emitentlərdən yalnız notarial qaydada təsdiq edilmiş qiymətli kağızların dövlət reyestrindən çıxarışı və emissiya prospekti tələb edilsin.

2. Bu əmrin 1-ci bəndindən irəli gələn məsələlərə dair “Bakı Fond Birjası” QSC-nin internet səhifəsindəki müvafiq məlumatlar yenilənsin.

3. Bu Əmrin 1-ci bəndindən irəli gələn məsələyə dair tələb olunan tədbirlərin həyata keçirilməsi “Ticarət və üzvlük qrupu”nun rəhbəri İ.Mustafayevə və “Biznes inkişafı qrupu”nun baş mütəxəssisi M.Mehdiyevə həvalə edilsin.

4. Ümumi işlər qrupunun rəhbəri L.Qurbanova müvafiq struktur-bölmələrin bu əmrlə tanış olmasını təmin etsin.

**İdarə Heyətinin sədri v.m.i.e.**

**Eldar Abdullayev**